*UOT 159.9*

***Ülkər Əlövsət qızı Qurbanova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*

# ZİQMUND FREYD VƏ PSİXOLOJİ MÜDAFİƏ MEXANİZMLƏRİ

***Улкер Аловсат гызы Гурбанова***
*диссертант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# ЗИГМУНД ФРЕЙД И ПСИХОЛОГИЧЕСКАЯ ЗАЩИТА

***Ulkar Alovsat Gurbanova***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# SIGMUND FREUD AND PSYCHOLOGICAL DEFENSE MECHANISMS

**Xülasə.** Məqalədə psixoloji müdafiə və onun mexanizmləri haqqında araşdırmalar əks olunmuşdur. Bu istiqamətdə Z. Freydin tədqiqatlarına istinad böyük əhəmiyyət kəsb edir. Z. Freydin fikrincə, müdafiə mexanizmləri id və eqo arasında mübarizədən irəli gələn münaqişəni həlletmə strategiyasıdır. Psixoloji müdafiə fenomeni xüsusən də klinik praktikadan qaynaqlandığı üçün, psixoterapevtik kontekstdə təhlili aparılmışdır.

***Açar sözlər*:** *müdafiə sistemi, psixoloji müdafiə mexanizmləri, Ziqmund Freyd, şəxsiyyət, İd, Ego*

**Резюме.** В статье отражены исследования психологической защиты и ее механизмов. В этом направлении большое значение имеет обращение к исследованиям З. Фрейда. По З. Фрейду, защитные механизмы – это стратегия разрешения конфликта, возникающего в результате борьбы между Ид и Эго. Поскольку феномен психологической защиты берет свое начало из клинической практики, он анализировался в психотерапевтическом контексте.

***Ключевые слова:*** *ращитная система, механизмы психологической защиты, Зигмунд Фрейд, личность, Ид, Эго*

**Summary.** The article reflects research on psychological defense and its mechanisms. In this direction, the reference to Z. Freud's researches is of great importance. According to Z.Freud, defense mechanisms are a strategy for resolving the conflict arising from the struggle between the id and the ego. The phenomenon of psychological defense has been analyzed in a psychotherapeutic context as it originates from clinical experience.

***Key words:*** *Defense system, psychological defense mechanisms, Sigmund Freud, personality, Id, Ego.*

Psixoanalitik nəzəriyyənin əsas strukturlarından biri olan psixoloji müdafiə anlayışı nəzəriyyənin əsas terminlərindən biri olmaqla yanaşı, həmçinin onun ən mühüm hissəsini təşkil edir. Psixoloji müdafiə mexanizmləri şəxsiyyətin təbii psixoloji sistemidir. Bu barədə ilk dəfə Z. Freyd 1894-cü ildə nəşr olunan "Müdafiə Psixonevrozları" və 1896-cı ildə nəşr olunan "Müdafiə Psixonevrozları və psixonevrozlara dair yeni izahatlar" adlı məqaləsində müdafiə anlayışını təqdim etmişdir.

Z. Freyd psixoloji müdafiəyə belə bir şərh verirdi ki, müdafiə mexanizmləri – insanı qayğı və narahatlıq kimi xoşagəlməz duyğulardan qoruyan şüursuz reaksiyalardır. Həmçinin insanı təhdid edən impulsları təhrif edən və gizlədən eqonun müdafiə meylləridir. Freyd psixikanın ali səviyyəsi şüur və şüursuzluq arasındakı əlaqəni analiz edərək "müdafiə" anlayışını "psixoloji təzyiq" anlayışı ilə əvəz etdi. Onun fikrincə, şüur və şüursuzluq hər zaman ziddiyyət təşkil edir və psixoloji təzyiq də bu qarşıdurmada əla-

qəni gücləndirir. Şüursuzluq, şüurun qəbul edilməyən daxili narahatlıqlardan qorunmasını psixoloji təzyiq vasitəsilə həyata keçirir [1]. Müdafiə vasitəsilə narahatedici impuls şüurdan uzaqlaşdırılır, şüurdan uzaqlaşdırılan impuls isə simptomlarda özünü göstərir və bu baxımdan müdafiə psixopatoloji vəziyyətə gəlib çıxırdı. Buna görə də Freyd, isterik nevroz, obsesif nevroz, fobiya və halüsinator psixoz kimi sindromlara “müdafiə psixonevrozları” adını verirdi. Daha sonra Freyd "Zarafatlar və onların şüursuzluqla əlaqəsi" (1905) əsərində növbəti dəfə bu barədə qeydlər apardı. O, repression-basdırma anlayışını insanı narahat edən düşüncədən uzaq durmaq cəhdi kimi qiymətləndirirdi, eləcə də müdafiə və basdırma anlayışını sinonim kimi işlədirdi. Bu araşdırmasında müdafiə anlayışından istifadə edərək Freyd yerdəyişmə, inkar, basdırma və təhrifetmə mexanizmlərini təsvir etdi. Sonrakı prosesdə Freyd (1923) müdafiə konsepsiyasında mərkəzi rol oynayan şəxsiyyət modeli hazırladı. İd, eqo və supereqo kimi üç ayrı struktur müəyyən edən Z. Freyd bununla da müdafiə mexanizmlərinə yeni yanaşma gətirdi [2].

İnsan doğulduğu andan etibarən İD adlandırılan cinsi və aqressiv impulsları özündə ehtiva edən, mənəvi yaradılışın ən təməl elementi olan bir sistemlə doğulur. Eqo və supereqo, İddən ayrı inkişaf edir. Eqonun işi İd-nin riskli istəklərini idarə etmək, onlara reallığa və sosial qəbula uyğunluq imkanı yaratmaqdır. Bu həm də, mənəvi və sosial qaydaların mənimsənilməsi ilə formalaşan Super egonun üzərindəki təzyiqi balanslaşdırmağa xidmət edir [3].

İnsanın təcavüzkar yönümünü təmsil edən İd və İdin istəkləri mənəvi cəhətdən gərginliyə səbəb olur. İnsanın psixi sistemi, eynilə onun bioloji sistemi kimi bir tarazlıq axtarışındadır. Eqonun əsas funksiyası bu tarazlığı qorumaqdır. Bu funksiyanı yerinə yetirərkən eqo psixoloji müdafiə mexanizmlərindən istifadə edir. Əsas müdafiə mexanizmlərindən olan bastırma funksiyası İD-nin riskli istəklərini şüuraltına itələyərək şüura gəlməsinin qarşısını almaqdır. Basdırma mexanizminin uğursuz olduğu məqamlarda da digər müdafiə mexanizmləri işə düşür. Beləliklə ard-arda istifadə olunan müdafiə mexanizmləri vasitəsilə mənəvi gərginlik nəzarət altında saxlanmağa çalışılır. Məsələn: insan qəbul olunmayan cinsi istəklərini basdıra bilmədikdə günahkarlıq və narahatlıq hisslərini nəzarət altında saxlamaq üçün təmizliklə bağlı təkrarlanan vərdiş və davranışları özündə inkişaf etdirə bilər. Davamlı əl yuma davranışı ilə basdırmanın qeyri-kafi olduğu gərginlik yaradan vəziyyəti yerdəyişmə, intellektuallaşdırma kimi müxtəlif müdafiələrlə nəzarətdə saxlamağa çalışmaq olar.

Xəstələrinin simptomlarını müalicə etməyə çalışarkən, Freyd bu simptomların şüursuz, qəbul olunmayan fikir və impulsların yaratdığı narahatlıq, günahkarlıq kimi mənfi duyğuları gizlətmək üçün istifadə olunan müdafiə vasitələri olduğunu kəşf etdi.

Z. Freyd ilk dəfə 1894-cü ildə yazılmış “Müdafiə Psixonevrozları” (Neuro-Psychoses of Defence) adlı əsərində “müdafiə” anlayışından istifadə etmişdir. İlk əvvəl müdafiə anlayışını isterik nevroza aid psixopatologiya olduğunu düşünmüşdür. Z. Freyd “İsteriya üzrə tədqiqatlar” kitabında yazdığı hadisələrdən biri olan xanım Lucie R. halında ilk dəfə basdırma anlayışını işlətmiş və qəbul olunmayan duyğu və düşüncələrin basdırılması ilə əlaqədar nevrotik simptomların meydana çıxdığından danışmışdır. Freydə görə, şəxsi narahat edən düşüncələr şüurdan uzaqlaşdırılaraq şüuraltına itələnir və burada bir özək əmələ gətirir. Baxmayaraq ki, fikir hissəsi şüur hissədən sıxışdırılır, düşüncənin emosional məzmunu psixi sistemdə hələ də boşluqda qalır. Boşluqda qalan emosional enerji özünə somatik çıxış yolu tapır, bayılma, iflic, korluq kimi isterik simptomlarla özünü göstərir. İlk illərdə basdırma anlayışını ümumi bir müdafiə mexanizmi olaraq düşünərkən, zamanla duyğu və düşüncələri boğaraq, şüuraltında saxlamaq mənasında istifadə etməyə başladı [4].

Freydin araşdırmaları irəlilədikcə, fikirləri də dəyişməyə başlamışdır. 1915-ci ildən etibarən müdafiə mexanizmlərini şüuraltı münaqişələrdə istifadə olunan, psixopatalogiyadan uzaq, ümumi bir psixi mexanizm adı altında ifadə edirdi. O, burada, əvvəlki izahatlarından fərqli olaraq, özünümüdafiə terminindən istifadə edir. Bununla da müdafiə anlayışını özünümüdafiə funksiyalarından biri və mexanizm kimi təqdim edirdi [5].

Freyd müdafiə mexanizmlərini impulsiv istəklərin ego tərəfindən təhdid olaraq qavranılması şəraitində, şüuraltı cəhətdən istifadə olu-

nan psixi və zehni gərginliyi azaltmaq üçün müəyyən edilmiş funksiyalar kimi adlandırdı. Zaman keçdikcə basdırmadan əlavə də o, müxtəlif müdafiə vasitələri kəşf etmiş və onların funksiyalarını təsvir etmişdir. Freyd, doqquz müdafiə mexanizmi müəyyən etmişdir. Bu müdafiələr: repressiya, basdırma, inkar, proyeksiya, sıxışdırma, supresiya, yerdəyişmə, təcrid və introyeksiya olmuşdur. O, müdafiə mexanizmlərinin impulsların və duyğuların idarə edilməsində rol oynadığını və bunun patoloji olduğu kimi adaptiv ola biləcəyini də bildirmişdir [6].

Qızı Anna Freyd atasının müdafiə konsepsiyası üzərində işləyirdi. O, müdafiələrin psixopatoloji istifadəsindən daha çox adaptiv aspektləri üstündə dayanırdı. O, müdafiələri daxili münaqişələri sakitləşdirən mexanizmlər kimi görürdü. Atasının əksinə olaraq, eqo və İDdən gələn qəbul olunmayan impulsların yaratdığı narahatlıq, utanma və günahkarlıq kimi duyğulardan başqa eqonun müstəqil olaraq öz emosional təcrübələrindən danışırdı. Onun sözlərinə görə, eqo İDin təkidi ilə yaranan duyğularla yanaşı, özünün müstəqil emosional təcrübələrinə malikdir.

A. Freydə görə müdafiələr psixoloji tarazlığı nəzərə almaqla daxili impulsiv istəkləri idarə etmək və ya düzgün formada yeniləmək imkanı yaratmaq üçün egonun istifadə etdiyi mexanizmlərdir. Müdafiələr yaşa uyğundursa, problemin həllinə yönəlmişsə və tez-tez istifadə olunmursa bu patalogiya deyil, normadır.

A. Freyd atasının müxtəlif yazılarında təsvir etdiyi doqquz müdafiənin üzərinə sublimasiya, identifikasiya və altruizm mexanizmlərini əlavə etmişdir. Bu müdafiələri hərtərəfli araşdırmasına baxmayaraq, şəxsin xoşagəlməz hissləri yaşamasına mane olan hər şeyin müdafiə ola biləcəyini qeyd etmişdir. Anna Freyd klassik psixoanalizdə iddən gələn istəklərin kəşfi üçün verdiyi izahı, egonun daxili və xarici təhdidlərlə mübarizə aparmaq üçün formalaşdırdığı mexanizmləri üzərinə köçürmüşdür. Beləliklə, Z. Freydin nevrotik simptomların formalaşması üzərindəki araşdırılması ilə başlayan dinamik psixologiyanın diqqət mərkəzini, şəxsiyyət patologiyaları üzərinə çəkmiş və ego psixologiya adlanan cərəyanın yaranmasına başçılıq etmişdir. Eqo psixoloqlarının müdafiə mexanizmləri ilə bağlı araşdırmaları nəticəsində müdafiə mexanizmlərinin sayı 31-ə yüksəldi.

Növbəti illərdə Freyd müxtəlif xəstəliklərin müəyyən müdafiə mexanizmləri ilə əlaqəli olduğunu müdafiə etdi. O, məsələn, basdırma və isteriya arasında əlaqə ola biləcəyini söylədi. Eyni illərdə ucaltma, reaksiya, təcrid, proyeksiya, reqressiya kəşf edilmiş və təsvir edilmişdir.

Freydin müdafiə mexanizmləri haqqındakı aşağıdakı fikirləri qəbul olunmuşdur: “Müdafiələr instinktlərə, impulslara və təsirlərə qarşı istifadə olunur, onlar şüuraltında formalaşır, dinamikdirlər, patoloji ola bilərlər” [7].

Freydin ardınca onun qızı Anna Freyd (1936) müxtəlif müdafiə mexanizmlərini təsnif etmiş və müdafiə mexanizmləri ilə reallıq arasındakı əlaqəni araşdırmışdır. Basdırılmış duyğuların təbiətinə görə müdafiə mexanizmlərini; impulslara qarşı və təsirlərə qarşı olaraq iki yerə ayıran Freyd, eyni zamanda müdafiə mexanizmlərinin müəyyən bir inkişaf mərhələsi ilə əlaqədar olan daxili ziddiyyətləri və duyğuları aradan qaldıraraq şəxsiyyətin “mən”inə xidmət etdiyini irəli sürmüşdür. Məsələn: oral dövrdə proyeksiya və inkar, anal dövrdə reaktiv təşkil və yerdəyişmənin ortaya çıxdığını irəli sürmüş, lakin bu mexanizmlərin növbəti illərdə istifadəsini patologiya əlaməti kimi qeydə almışdır. Brenner narahatlığı və ya impuls gərginliyini azaltmağa yönəlmiş hər bir addımı psixoloji müdafiə adlandırmışdır.

Müdafiəni "ikitərəfli amillər" kimi izah edən Schafer psixoloji müdafiəni arzuolunmaz məzmunların qarşısının alınmasında istifadə olunmalı olduğunu təklif etmişdir. Onun fikrincə, psixoloji müdafiələr, müdafiə xarakteri daşımaqla yanaşı, şəxsə, həmçinin məmnunluq verir, bunun üçün də o şüuraltı hissədə mövcud olmalıdır.

Təməlini Freydin əsərlərindən götürən bəzi nəzəriyyəçilərin fikirlərinə görə psixoloji müdafiə təkcə duyğu və impulsları tənzimləməklə deyil, həmçinin daxilən duyğuların idarə olunmasında və idrak proseslərində də istifadə olunur. Başqa sözlə, müdafiə şəxsiyyəti təhlükəli duyğu və hadisələrdən qorumaqla yanaşı, həmçinin uşaqlıq dövründə yaranan və formalaşan mənəvi hisslərin tənzimləyicisidir [8].

A.M. Klein identifikasiya, proyeksiya, defleksiya, yerdəyişmə haqqında araşdırma aparmış, bu müdafiə mexanizmlərinin təşviş və narahatlıq duyğusunun öhdəsindən gəlmək üçün reallığın təhrifi funksiyası gördüklərini izah et-

mişdir. Onun fikrincə, inkişafının oral mərhələsində olan uşaq təhlükəni hiss edən, psixoloji müdafiədən istifadə edən və əşyalar arasında primitiv əlaqələr quran bir şəxsiyyət kimi formalaşmışdır. Körpələrdə "mən" duyğusunun inkişafı introyeksiya və proyeksiya mexanizmləri ilə tənzimlənir. Uşağın süd əmdiyi ana sinəsini "yaxşı" və "pis" olaraq böldüyü və narahatlığını bu obyektə davranışında göstərdiyi ilk mərhələni Klein "paranoidşizoid mövqe" kimi təyin edirdi. Bu erkən dövrdə narahatlığı aradan qaldırmaq üçün "mən" özünü bölmə, introyeksiya, identifikasiya və inkar kimi müxtəlif müdafiə mexanizmlərini inkişaf etdirir. Uşaq burada ikinci mərhələ olan depressiv pozisiyadadırsa, manik müdafiələr istifadə etməyə başlayır. Kleinə görə bu dövrdə uşaq üçün əsas narahatlıq mənlik şüurunun sadist cəhətləri ilə mübarizədir. İdentifikasiyanın xüsusi bir forması olan Proyeksiya Klein tərəfindən psixoanalitik ədəbiyyata əlavə olunmuşdur. Yaxşı hiss və duyğular mənimsənilərkən, pis hiss və duyğuların kənarlaşdırılması uşağın inkişafının ən mühüm göstəricisidir.

Elmi ədəbiyyatda çox sayda psixoloji müdafiə mexanizmlərinə təsadüf olunur, bunlardan bəzilərini araşdırdıq.

*1.Sıxışdırma anlayışı* Freyd tərəfindən təklif edilmişdir. Freyd sıxışdırmanı həyəcandan uzaqlaşmanı təmin edən mürəkkəb mexanizmlərin formalaşmasının əsası kimi çıxış edən ilkin mexanizm kimi nəzərdən keçirirdi. Bir çox hallarda motivləşmiş unutma kimi təsvir edilən sıxışdırma iztirab verən fikir və hisslərin, şüurdan kənarlaşdırılması prosesindən ibarətdir. Sıxışdırma mexanizminin hesabına fərdlər onların həyəcanına səbəb olan konfliktlərini dərk etmir, eləcə də keçmiş travmatik hadisələri xatırlamır. Sıxışdırma – xoşagəlməz arzu və fikirlərin, ziddiyyətli hiss və xatirələrin şüur sahəsinə buraxılmaması və ordan kənarlaşdırılmasıdır. Sıxışdırma mexanizmi digər müdafiə mexanizmini-proyeksiyanı fəallaşdıra bilər [9].

2. *Proyeksiya.* Proyeksiya mexanizminin psixoanalitik dərki Freydin işlərindən başlayır. O, proyeksiyanı ilk dəfə paranoya və qısqanclıqda aşkarlamışdır. Bu zaman sıxışdırılmış hiss, həyəcan və qorxuların kökü insanın özündə olur və şüuraltı olaraq ətrafdakılara yönəlir. Məhz bu müdafiə mexanizmi tənhalıq hissinin, təcridiliyin, paxıllıq və aqressivliyin baş qaldırmasına səbəb olur. Proyeksiya şəxsi problemlərin, narahatlığın mənbəyini "başqalarına köçürmə" şəklində təzahür edən meylin formalaşması ilə bağlıdır, ondan istifadə etməklə, fərd öz uğursuzluqlarında başqalarını təqsirləndirir. Proyeksiya bir müddət insanı yaşantılardan azad edir, insanı ya çox şübhəli, ya da etinasız edir. Proyeksiya ilə mübarizənin başlanğıcı kimi şəxsin öz çatışmazlıqlarını qəbul etməsi, ətrafdakıların qoyduğu tələblərin məzmununa diqqət yetirməsi çıxış edir.

3. *Basdırma* – sıxışdırmadan daha şüurlu xarakter daşıyır, həyəcan verən informasiyadan qaçmaq, dərk edilən affektogen impuls və münaqişələrdən diqqətin yayınmasıdır. Basdırma – sıxışdırma adlanan psixi əməliyyat şüurdan xoşagəlməz affekt və ideyaların kənarlaşdırılmasına yönəlib. Basdırmanın məhsulu şüur önündə yerləşir, sıxışdırma mexanizmində gördüyümüz kimi şüursuzluq səviyyəsinə keçmir. Basdırma mürəkkəb müdafiə mexanizmidir.

4. *İdentifikasiya.* İdentifikasiya mexanizmi öz başlanğıcını Freydin psixoanalizindən götürür. İdentifikasiya başqa insanla emosional əlaqə əsasında həyata keçirilir və insanın sevdiyi bir şəxsə oxşamaq meyli ilə müşayiət olunur. Klassik psixoanalizdə identifikasiya dedikdə başqa insanla emosional əlaqənin, hisslərin erkən təzahürü başa düşülür. Uşaq anaya və ataya, yaxud onları əvəz edən insana bağlanır, onlara oxşamağa çalışır və identifikasiya hesabına nümunə kimi götürülmüş şəxsiyyətin keyfiyyəti və davranışı formalaşmağa başlayır [10].

5. *İntroyeksiya.* F. Perlz tərəfindən təsvir edilmişdir. Perlzə görə, introektor başqalarının istəklərini həyata keçirir. İntroektor rolunda uşağın valideyn və ətrafdakı insanlardan əldə etdiyi "həyat qaydaları" çıxış edir. İntroyeksiyalar insan müqayisə, təhlil, inkar, şübhə, isbat etmək arzu və imkanından məhrum olduqda başqalarının fikirlərini sadəcə inama əsaslanaraq qəbul etməyə üstünlük verəndə təzahür edir.

6. *Rasionallaşdırma.* "Eqo" frustrasiya və həyəcanın öhdəsindən gəlməsinin digər üsulu reallığın təhrif edilməsi və bu yolla özünüqiymətləndirmənin mühafizə edilməsidir. Rasionallaşdırma yanlış arqumentasiyaya əsaslanaraq irrasional davranışa, gülünc səhvlərə, uğursuz

mühakimələrə ətrafdakıların gözündə haqq qazandırmaq imkanı verir.

E. Fromma görə rasionallaşdırma insanın özünü bir şəxsiyyət kimi hiss etməsi üçün vacib mexanizmdir.

7. *İntellektuallaşdırma.* Psixoanalizdə bu müdafiə mexanizminin ən aydın izahı A. Freyd tərəfindən verilmişdir. Onun fikrincə, intellektuallaşdırma elə müdafiə mexanizmidir ki, onun cərəyanı zamanı insan öz meyllərini bu və ya başqa fikirlə əlaqələndirərək onlarla şüurlu olaraq "oynayaraq" bu meyllərinə hakim olmağa çalışır. A. Freydə görə, problemin məğzi insan təbiətinin instinktiv tərəfini onun həyatının digər tərəfi ilə necə uzlaşdırmaqda, dərkedilməyən emosiyaların həyata keçirilməsi ilə onlardan imtina etmə arasında necə seçim etməkdədir.

8. *Kompensasiya* – ən mürəkkəb müdafiə mexanizmidir. O, real və uydurulmuş itkilər, qüsurlar, izdirablarla bağlı kədər hissinin qarşısını almağa xidmət edir, kompensasiya bu qüsurların islahına və ya onun üçün əvəzin axtarılmasına yönəlir. Kompensasiya və hiperkompensasiya mexanizmlərinin müəllifi A. Adlerdir. Hiperkompensasiya insanın zəif inkişaf etmiş tərəflərini inkişaf etdirmək cəhdində təzahür edir. Kompensasiya zamanı isə çatışmayan cəhətin inkişaf etdirilməsi əvəzinə şəxs onsuz da yaxşı inkişaf etmiş əlamətinin intensiv inkişafına çalışır.

9. *Retrofleksiya.* F. Perlzə görə retroflektor başqaları üçün eləmək istədiklərini özü üçün edir. Retrofleksiya davranış reaksiyalarında ifadə olunmadığından stressə və gərginliyə səbəb ola bilər. Retrofleksiya özünənəzarətdə ifadə olunur və şəxsiyyəti xarici müdaxilələrdən mühafizə edən nəzarət tipini təmin edir. Digər mexanizmlər kimi retrofleksiya da erkən uşaqlıq dövründən formalaşmağa başlayır.

10. *Defleksiya.* Bu mexanizm tez-tez fərdin keçmiş təcrübəsində yaşanılmış etibarsızlıq, qorxu, təhlükə nəticəsində təzahür edir və şəxsiyyəti emosional partlayışdan mühafizə edir. Defleksiya intensiyadan imtina, seçimdən qaçışla bağlı şəxsiyyət strategiyası hesab olunur.

11. *Sublimasiya.* Z. Freydə görə, sublimasiya insana adaptasiya məqsədi ilə öz impulslarını sosial cəhətdən qəbul edilən fikir və hərəkətlərlə ifadə etmək imkanı verən müdafiə mexanizmidir. Sublimasiya yeganə sağlam, xoşagəlməz impulsları konstruktiv şəkildə cilovlamaq strategiyası kimi nəzərdən keçirilir [11] .

12. *Reaktiv təşkil.* Bəzən eqo qadağan edilmiş impulslardan davranış və fikirlərdə əks təhriklər ifadə edərək qoruna bilər. Bu halda söhbət məhz reaktiv təşkildən gedir.

13. *İnkar etmə.* Bəzən insan onunla baş vermiş xoşagəlməz hadisəni qəbul etməkdən imtina edir. Bu halda inkaretmə mexanizmi işə düşür. Z. Freydə görə, inkaretmə kiçikyaşlı uşaqlar və aşağı intellektə malik daha yaşlı insanlar üçün səciyyəvidir [12] .

14. *Altruizm* – digər insanlara kömək edərək şəxsi məmnuniyyəti inkişaf etdirən davranışdır. Məsələn, narkotik asılılığından yenicə sağalmış bir şəxs, ortaya çıxan narkotik ehtirasını boğmaq üçün onunla eyni prosesdə olan digər insanlara kömək edə bilər.

**Problemin aktuallığı**. Sosiallaşma prosesində hər bir insanda psixoloji müdafiə bacarığı formalaşır. Burada ailənin, bütövlükdə sosial mühitin rolu olduqca vacibdir. Bu cəhətdən psixoloji müdafiə mexanizmlərinin araşdırılması və tədqiqatçıların fikirlərinə istinad böyük əhəmiyyətə malikdir.

**Problemin elmi yeniliyi.** Psixoloji müdafiə şəxsiyyətin quruluşundakı ən mübahisəli xüsusiyyətlərdən biridir. Hər hansı bir insanın gündəlik həyatında, həyat təcrübəsində psixoloji müdafiə funksiyaları gizli davranış motivi olaraq qalır. Elmi işdə psixoloji müdafiə mexanizmlərinin yaranması və formalaşması diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorantlar və gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. İsmayılov F. Ziqmund Freyd. / F. İsmayılov. -Bakı: Gənclik, -1994, - 46 s.
2. Sigmund Freud . Psikanaliz Üzerine. Çev:A. Avni Öneş, -154 s.
3. Özakkaş, T. Bütüncül Psikoterapi. -İstanbul: Literatür , -2008
4. Gençtan, E. Psikanaliz ve Sonrası.- İstanbul: Metis, -2014.
5. Leeuw, On the development of the concept of defense,The International Journal of Psychoanalysis, 1971. -s. 51-58.
6. Zepf, S. About Rationalization and Intellectualization. International Forum of Pschoanalysis. 2011. -s.- 20.

7. Gabbard, 1995 . Psychoanalysis. Comprehensive Textbook of Psychiatry VI, Vol 1, Ed. by Kaplan, H. I.; Sadock, B. J., Baltimore, Maryland: Williams & Wilkins, pp. 431-478 .
8. Lerner, H.D., Lerner, P.M.: 1982 "A Comparative Study of Defensive Structure in Neurotic, Borderline, and Schizophrenic Patients", Psychoanalys and Contemporary Thought, p 77-115.
9. Bayramov, Ə.S. Hüquq psixologiyası. / Ə.S. Bayramov, B.H. Əliyev -Bakı: Təhsil, -2012. -280 s. .
10. Набиуллина, Р.Р. Механизмы психологической защиты и совладания со стрессом: Учебное пособие / Р.Р. Набиуллина.- Казань, 2003. – 98 с.
11. Райгородский, Д.Я. Психология и психоанализ характера: Хрестоматия / Д.Я. Райгородский - Самара: Издат. Дом «БАХРАХ-М», -2002.-640 с.
12. Freud, S., & Bruer, J. (2001). Histeri Üzerine Çalışmalar (Çev.: Kapkın, E.). -İstanbul: Payel Yayınları, -2001. -s 23 .

**E-mail:** ulker_sahverdiyeva@mail.ru
**Rəyçilər:** *psixol.ü.fəls.dok, dos.* **S.N. Əliyeva,**
*psixol.ü.fəls.dok, dos.* **Ü.A. Əfəndiyeva**
**Redaksiyaya daxil olub:** 08.02.2023.